**UOT 792.01**

***Mülayim Əhmədova***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:* mulaim_akhmedova@yandex.ru**

# KNUT HAMSUN YARADICILIĞININ DÜNYA ƏDƏBIYYATINDA YERİ

**Xülasə**: Məqalədə yeni dövr dünya ədəbiyyatına dəyərli əsərlər bəxş etmiş Knut Hamsunun həyat və yaradıcılığından, dünya ədəbiyyatı tarixində özünəməxsus yerindən, yazıçı haqqında söylənən fikirlərdən, Nobel mükafatına layiq görülməsindən və ziddiyyətli yazıçı kimi tarixdə iz qoymasından bəhs edilir.

**Açar sözlər**: Knut Hamsun, Norveç, yazıçı, humanizm, nobel, roman.

Knut Hamsun öz yaradıcılığı ilə yeni dövr dünya ədəbiyyatına gözəl incilər bəxş etmiş yazıçılardan biridir. Hamsunun bədii irsi bəşər sivilizasiyası üçün qiymətli xəzinədir. Hamsun öz yaradıcılığında ictimai əhəmiyyət kəsb edən məsələlərə toxunmuş, sivilizasiyanın gətirdiyi ziddiyətləri və bəşəri mövzuları işıqlandırmışdır.

Knut Hamsun 1859-cu il avqustun 4-də Norveçdə kəndli ailəsində anadan olmuşdur. Yazıçının uşaqlıq illəri olduqca ağır və yoxsulluq içərisində keçmişdir. Övladlarını saxlamaqda çətinlik çəkən ailə Knutu dayısının himayəsinə verməyə məcbur olmuş, bununla da Hamsunun həyatında əzablı günlər başlamışdır. Buna səbəb isə, dayısının olduqca sərt və qaraqabaq xasiyyətli olması idi. Hamsun bu çətin vəziyyətdən yalnız dayısı ciddi xəstəliyə tutulduqdan sonra can qurtara bildi. Yarıac, yarıtox həyatdan, danlaqlardan və kötəklərdən xilas olduğunu düşünən yazıçı, hələ qarşıda onu necə çətin həyat gözlədiyindən xəbərsiz idi.

Knut Hamsun ciddi və istedadlı bir gənc idi. O, yalnız kənd məktəbində ibtidai təhsil almış, əldə etdiyi bütün digər bilikləri isə oxuduğu kitablardan öyrənmişdi. Yazıçının güclü müşahidəçilik qabiliyyəti də ona böyük kömək olurdu. Bu istedadını düzgün qiymətləndirən Knut, həyatı və insanları diqqətlə müşahidə edirdi.

Gənc yazıçı öz yerini tapmaq istəyi ilə, 1878-ci ildə Norveçin həmin dövrdə Kristaniya adlanan paytaxtı Oslo şəhərinə köçür. Burada bir ilə yaxın çalışdıqdan

sonra Amerikaya üz tutur. İki ilə yaxın ABŞ-da ehtaiyacın hər üzünü görən Hamsun geri qayıtmağa məcbur olur. Lakin yazıçının həyatında yaxşıya doğru heç bir dəyişiklik baş vermir. Hamsun öz ölkəsində də aclıq və səfalət içərisində ağır günlər yaşıyır. 1886-ci ilin sonunda təzədən ABŞ-a gedərək fərqli yerlərdə günəmuzd fəhlə işləməklə düşdüyü çətin vəziyyətdən xilas olmağa çalışır. Lakin heç bir nəticə əldə edə bilməyərək yenidən Avropaya qayıtmaq məcburiyyətində qalır.

"Elə adamlar var ki, həyat yolunda bircə dəfə yıxılmaqla daha ayağa qalxa bilmir, amma elələri də var ki, heç nə olmayıbmış kimi ayağa qalxır, üst-başının tozunu çırpıb yoluna davam edir" [4, s.84]. Hamsun da gənc yaşlarında atdığı hər addımda yıxılmasına baxmayaraq, israrla ayağa qalxıb yoluna davam edən şəxsiyyətlərdən idi. İnsan həyatında uğursuzluqlar heç də həmişə mənfi rol oynamır. Qəribə səslənsə də, Hamsunun yaşadığı bu uğursuzluqlar onun həyatı boyu qazandığı ən böyük uğurlarından birinə çevrilir.

Hamsun yaradıcılığa çox erkən yaşlarından başlamışdır. Yazıçı 1877-ci ildə "Qəribə adam. Norlandda məhəbbət əhvalatı" adlı ilk kiçik həcmli povestini nəşr etdirir. Hamsunun bir il fasilədən sonra çap etdirdiyi "Görüş" balladası və "Börger" hekayəsi də yazıçının ilk qələm təcrübələri olaraq, ona şöhrət qazandırmır.

1888-ci ildə yazıçının həyatında yeni bir dövr başlayır. O, Avropaya qayıdıb Danimarkanın paytaxtı Kopenhagendə məskunlaşır. Bununla da Hamsun həyatını ədəbi yaradıcılığa həsr edir və çox çəkmir ki, qəzetlərdə çap edilən "Amerikanın mənəvi həyatı" adlı oçerki böyük kütlə tərəfindən marağa səbəb olur. Hamsun bundan təsirlənərək üzərində səylə çalışdığı əsərlərdən fraqmentlər çap etdirərək oxucuların marağını daha çox çəkməyi bacarır.

Yazıçı Osloda baş vermiş real hadisələr üzərində qurulan və ona dünya şöhrəti qazandıran "Aclıq" romanını tanınmış publisist, "Yeni həyat" jurnalının redaktoru Edvard Brandesə təqdim edir. 1890-cı ildə roman jurnal halında çap olunur, bununla da Avropa ədəbiyyatına yeni və özünəməxsus istedadın gəldiyi hamı üçün aydın olur. 1891-ci ildə isə roman ayrıca kitab şəklində nəşr edilir. Bu hadisə yazıçının həyatında çox böyük dönüş yaradır. "Aclıq" romanının kitab şəklində nəşrindən sonra bir çox tənqidçilər roman haqqında fikirlər yazırlar. Bu tənqidçilərdən biri də, Danimarkalı Erik Skram idi. O romanın uğuru haqqında yazırdı: "Bu əsərin bədii məziyyətləri onu müasir Avropa ədəbiyyatının ən yaxşı nümunələri ilə bir sıraya qoymaq imkanı verir" [4, s.74].

Knut Hamsun, əsərlərində öz həyatını, yaşadığı mühiti əks etdirirdi. Yazıçı canlandırdığı obrazların psixoloji portretlərini çəkməyə üstünlük verir və personajlarını adətən sadə insanlar arasından seçirdi. K.Hamsunun əsərlərinin heç biri avtobioqrafik səciyyə daşımasa da, yazıçının tərcümeyi-halına nəzər saldıqda hər birində həyatından, taleyindən müəyyən məqamlar tapmaq mümkündür. Bu cəhətdən "Aclıq" romanını xüsusi qeyd etmək lazımdır. Aclıq romanının tam şəkildə nəşrindən əvvəl, bir çox jurnallarda anonim parçalar şəklində nəşr edilməsi bizə məlumdur. Bu jurnallardan biri də "My jord" (Yeni torpaq) adlı Danimarka jurnalı idi. Jurnalda çap olunan ilk cümlə belə başlayırdı: "Bu əhvalat iki il bundan

əvvəl olmuşdu". Digər jurnalda isə, "O zaman mən adama həmişəlik öz damğasını basan bu qəribə şəhərin – Kristaniyanın küçələrində ac-yalavac dolaşırdım" [2, s. 571]. Bununla da, bizə aydın olur ki, söhbət 1886-cı ildə Hamsunun yaşadığı ən ağır, dözülməz və ölümlə mübarizə apardığı dövrdən gedir. Lakin bütün bunlara baxmayaraq, "Aclıq" romanını sırf avtobioqrafik əsər adlandırmaq düzgün deyil.

Yazıçı özü qeyd edirdi ki, bu romanında: "ardıcıl olaraq aclıq keçirən insanın özünəməxsus ruhi-mənəvi həyatını, onun əsəb sarsıntılarını təsvir etməyə səy göstərib" [2, s.571]. Aclıq romanında yazıçının qəhrəmanı təkcə fizioloji deyil, eyni zamanda pozulmuş, korlanmış dünyada insani münasibətlərə ehtiyac duyaraq mənəvi aclıq yaşıyan bir şəxsiyyətdir.

Peşəkar yazıçı həyatına qədəm qoymuş Knut Hamsun "Aclıq" romanının ardınca, "Misteriyalar" romanını qələmə aldı. 1892-ci ildə çap olunan bu roman yazıçının yaradıcılığında yeni səhifə açdı. Forma və məzmunca qeyri-adi olan roman oxucular və tənqidçilər tərəfindən təəccüb və heyrətlə qarşılandı.

Knut Hamsun yaradıcılığında tarixi əhəmiyyət kəsb edən mövzulara da toxunmuşdur. Bu mövzuları özündə təcəssüm etdirən tənqidi əsərlərinə nümunə olaraq 1892-ci ildə qələmə aldığı "Redaktor Lünger" və 1893-cü ildə yazmış olduğu "Pöhrələr" romanlarını qeyd edə bilərik.

Hamsunun 1890-cı illərdə qələmə aldığı əsərlərinin əsas xüsusiyyətini qatı psixologizm və yüksək sənətkarlıq təşkil edirdi. Yazıçının "Pan" (1894) və "Viktoriya" (1898) romanlarında insan ehtiraslarının və duyğularının təsviri araşdırma obyekti idisə, "Hakimiyyətin qapısı önündə" (1895), "Həyat dramı" (1896), "Axşam şəfəqi" (1898) dramatik trilogiyasında sosial problemlər üstünlük təşkil edirdi. Hamsunun dram əsərləri Avropada, Almaniya və Rusiyada çox sevilir və ən yaxşı səhnələrdə oynanılırdı. Hamsunun pyesləri zamanında çox səhnəyə qoyulsa da, tənqidçilərin fikrincə bu səhnə əsərləri xarakterlərin dərinliyi baxımından romanları ilə müqayisə olunmayacaq dərəcədə zəifdir.

Norveç Yazıçılar cəmiyyətindən 1200 kron yardım alan K.Hamsun bu vəsaitlə səyahət etmək qərarına gəlir və 1899-cu ilin payızında səfər üçün Rusiyanı və Osmanlı imperiyalarını seçir. Yazıçı Sankt-Peterburq və Moskvadan sonra Türkiyəyə gedərkən bir neçə gün Qafqazda olur və bu səyahətin nəticəsi kimi 1903-cü ildə "Nağıllar diyarında", Türkiyə səfərində isə "Aypara ölkəsində" adlı oçerklərini qələmə alır. Yazıçı oçerkində Bakıdakı "İçərişəhər" və Suraxanıdakı "Atəşgah" haqqında azərbaycanlı oxucular üçün maraqlı olan fikirlər yazmışdır. K.Hamsun Qafqaza səyahəti zamanı Gürcüstanda da olmuş və geri döndükdən sonra - "Çariça Tamara" (1903) adlı romantik dramını yazmışdır.

XX yüzilliyin əvvəllərində K.Hamsun yaradıcılığında dönüş baş verdi. Yazıçı lirik üslubdan uzaqlaşıb, epik və obyektiv təhkiyə janrına keçdi. Bu dəyişiklik yazıçının yaşadığı mənəvi böhrandan irəli gəlirdi. Vətənin patriarxal həyatdan, kapitalist inkişaf yoluna üz tutması yazıçını mənəvi yaşantılara, iztirablara məruz qoydu. K.Hamsun "Xəyalpərəst" (1904), "Vəhşı xor" (1904), "Payız ulduzları altında" (1906), ""Qızıl gül" (1908), ""Xəlvəti ifa edən səyyah" (1909), "Sonuncu sevinc" (1912) əsərlərini məhs bu dövrdə qələmə aldı.

K.Hamsun iri həcmli əsərlərlə yanaşı, kiçik həcmli ”Gizli ağrı”, “Ata və oğlu”, “Qalib”, “Poçt arabası”, “Üzük”, “Məhəbbət köləsi” hekayələrinin də müəllifidir. Yazıçının əsas məqsədi romanlarında olduğu kimi, hekayələrində də personajların mənəvi-psixoloji portretini yaratmaqdır.

K.Hamsun, Avropa mədəniyyətinə öz yenilikləri ilə daxil olmuşdur. Biz Hamsunu onunla birlikdə XX əsr Avropa ədəbiyyatına daxil olmuş və bir o qədər də Amerkada sevilməyən həmkarları ilə müqayisə etsək o zaman onun yeniliyi daha qabarıq görünər.

K.Hamsunun təbiət yazıçısı olması ilk baxışdan nəzərə çarpırdı. O, heyvanların və quşların dilini başa düşür, qalın meşələr, cəngəlliklər və onların sakinlərini əsərlərində dilə gətirməyi məharətlə bacarırdı. Yazıçı bütün həyatı boyu təbiətə sadiqliyini tərənnüm edərək, təbiəti insanın daxilində yaratmağı bacardı və bununla da, o təbiət qarşısında yenilməzliyini sübut etdi.

Bu danılmaz faktır ki, K.Hamsunun torpağa və təbiyyətə bu cür bağlılığında Norveçin təkrarolunmaz xarici görünüşü az rol oynanamışdır. Təsadüfü deyil ki, K.Hamsun Nobel mükafatına layiq görülən romanını “Torpağın bərəkəti” adlandırmışdır.

Qatı millətçi, dar düşüncəli birisinin dahi yazıçı olması absurddur. Lakin biz Knut Hamsunun yaradıcılığına diqqət yetirsək aydın görə bilərik ki, dünya onun üçün vətəndir.

K.Hamsun Birinci Dünya müharibəsinə az qalmış ailəsilə birlikdə kənddə yaşamağı qərara alır. Onun bu qərarı böyük məna kəsb edirdi. Patriarxal-mühafizəkar kəndlilər kimi, Hamsun da şəhər sivilizasiyasına şübhəylə yanaşırdı.

Mövcud vəziyyət, hadisələrin gedişi Hamsunun fikirlərində yanılmadığını sübut etdi və kapitalist münasibətlərinin inkişafı Birinci Dünya müharibəsinin başlaması üçün zəmin yaratdı. Yazıçı tarixi tərəqqiyə düzgün istiqamət vermək istəyənlərin sualına müsbət cavab verməyi özünə borc bildi. Hamsun bu suala 1917-ci ildə qələmə aldığı “Torpağın bərəkəti” romanı ilə cavab verdi. Əsər məzmunu ilə, əsl insanlıq mahiyyətinin bərpasına çağıran, varlığın əbədi dəyərlərini tərənnüm edən himn kimi qarşılandı.

“Torpağın bərəkəti” romanı ilə yazıçı qüdrətli qələm sahibi olduğunu bir daha sübut etdi. Roman böyük uğur qazandı və 1920-ci ildə Nobel Mükafatları Komitəsinin qərarı ilə “Torpağın bərəkəti” romanına görə Knut Hamsuna ədəbiyyat üzrə Nobel mükafatı verildi. Ədəbiyyat üzrə mükafatçıların seçilməsində əsas söz sahibi olan Harad Yerne bu əsərin ideyasının, sadəcə, kənd həyatı ilə bağlanması fikrini yalnış sayaraq onu “harada yaşamasından, nə işlə məşğul olmasından asılı olmayaraq, bütün insanların həqiqi həyat hekayəsi” kimi dəyərləndirmişdir [4, s.78].

K.Hamsun Nobel nitqində “Torpağın bərəkəti” romanı barədə bu fikirləri söyləmişdir: ”Mükafata layiq görülmüş əsərim barədə yalnız bunu deyə bilərəm ki, onu yazıb ərsəyə gətirmək üçün bacardığımı, əlimdən gələni etmişəm. Başqa heç nə... Hamıdan öyrənmişəm. Hamıdan öyrənməyən kim var ki?! [4, s.82].

1943-cü ildə Knut Hamsun atdığı addımla hər kəsi təəccübləndirməyi bacardı. Yazıçı açıq-aşkar faşizmi dəstəkləyərək ən anti-humanist siyasi rejimin əsas idealoqu olan Jozef Göbelslə və Adolf Hitlerlə görüşündə – “siz bu medala layiq olan yeganə şəxssiniz” – dedi və humanizm ideyalarının rəmzi olan Nobel mükafatı medalını J.Göbelsə hədiyyə etdi.

Yazıçının bu addımı onun oxucularını yetəri qədər qəzəbləndirməyi bacardı. Hamsun hər zaman cəmiyyətin əksinə gedirdi. Lakin bu hal özünü yazıçının son dövr publisistikasında göstərsə də, bədii əsərlərində qəti şəkildə öz əksini tapmamışdı.

Bir qədər sonra, 1945-ci ildə psixiatrik xəstəxanaya yerləşdirilən Hamsun, 4 ay sonra qocalar evinə köçürülür. 1947-ci ildə yazıçı məhkəmə qarşısına çıxarılır və 80 min dollar cərimə olunaraq azadlığa buraxılır.

Bütün yaşadıqlarına baxmayaraq, yazıçı sonuncu dəfə “Ot basmış cığırlarla” adlı romanını qələmə alır. Mövzusu məhkəmə prosesində yaşananlar barədə olan roman 90 yaşlı yazıçının oxucularına son sözləri idi.

K.Hamsun faşizmi dəstəklədiyi üçün onu sevən oxucularını itirmə təhlükəsi yaşasa belə, ömrünün sonuna kimi özünün doğru bildiyi düşüncələrindən dönməmişdir. Bu səbəbdən də, bir çox ölkələrdə uzun müddət Knut Hamsunun əsərlərinin tərcümə edilməsinə və nəşrinə qadağa qoyulmuşdur. Lakin bütün yaşananlara baxmıyaraq bu gün də yazıçının “Aclıq” və “Torpağın bərəkəti” romanı dünyanın bir çox dillərinə tərcümə olunaraq nəşr edilməkdədir.

## Ədəbiyyat:

1. Knut Hamsun. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, 2006, 480 səh.
2. Knut Hamsun. Seçilmiş əsərləri. – Bakı: “Şərq – Qərb” , 2009, 576 səh.
3. Övladını öldürən Həvva. / “Kaspi”, Bakı, 13.09.2014.
4. Knut Hamsun. XX əsr ədəbiyyatının ən ziddiyyətli klassiki. “Ulduz” jurnalı ilə ayb.az saytının birgə layihəsi. İlham Abbasovun təqdimatında. // “Ulduz”, Bakı, Avqust, 2014. Səh. 73-85.
5. http://manera.az/tribuna/5942-nobel-mukafatchisi-yazichinin-baki-seferi.html
6. http://www.nash-sovremennik.ru/p.php?y=2001&n=7&id=15
7. http://gorkiy.lit-info.ru/gorkiy/articles/article-372.htm
8. http://manera.az/tribuna/5942-nobel-mukafatchisi-yazichinin-baki-seferi.html
9. http://kulis.lent.az/m/news/14632

**Мулаим Ахмедова**

**Место творчества Кнута Гамсуна в мировой литературе**

**Резюме**

Статья посвящена изучению жизни и творчества Кнута Гамсуна, выдающегося норвежского писателя, лауреата Нобелевской премии по литературе за 1920 год. Кнут Гамсун предстает прежде всего как художник,

который воспевал красоту и силу любви. Его произведения изображали с глубочайшей проницательностью сложность человеческой жизни.

**Ключевые слова**: Кнут Гамсун, Норвегия, писатель, гуманизм, нобелевская премия, роман.

**Mulaim Akhmedova**

**The place of Knut Hamsun's creativity in world literature**

**Summary**

The article deals with the life and work of Knut Hamsun, who gave valuable contributions to world literature in the new era, his unique place in the history of world literature, the writer's remarks, the Nobel Prize and the history of controversial writers.

**Keywords**: Knut Hamsun, Norway, writer, humanism, Nobel prize, novel.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.05.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.05.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Elçin Cəfərov**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**